

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 197 (21.098)
16 oktyabr 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az
Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Pyer Andryönü (Fransa), ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki və Devid Salvonu (ABŞ-dan olan həmsədrin köməkçisi) qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Fələstin Dövlətinin xarici işlər naziri Riyad əl-Malikinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Oyunları üzrə Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva oktyabrın 15-də Bakı Olimpiya Stadionunda tikinti işlərinin gedişi ilə tanış olublar.

## Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib

***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında "Müstəqilliyimiz əbədidir" adlı konfrans keçirilmişdir. Konfransı kitabxananın direktoru Aytəkin Qəhrəmanova açaraq Azərbaycan xalqının milli müstəqillik uğrunda çoxəsrlik mübarizəsindən bəhs etmişdir.***



Kitabxananın şöbə müdiri Südabə Heydərova "Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, tarixən azad olmaq, hürriyyətə qovuşmaq Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Cəmi 23 ay yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə 70 illik müstəmləkə həyatı belə, bu xalqın azadlıq yanğısını söndürə bilməmişdir.

Qeyd olunmuşdur ki, 1991-ci il oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilməklə Azərbaycanın dövlət müstəqilliyi uzun illərdən sonra yenidən bərpa edilmişdir.

Məruzəçi bildirmişdir ki, Azərbaycanın müstəqilliyinin əsası hələ ötən əsrin 70-ci illərində qoyulmuş, dahi rəhbər Heydər Əliyevin o zaman həyata keçirdiyi məqsədyönlü tədbirlər gələcək müstəqilliyimizin bünövrəsini təşkil etmişdir. Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Onun rəhbərliyi ilə Naxçıvanda milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımlar atılmışdır. Belə ki, üçrəngli bayrağımız ilk dəfə dahi rəhbərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin sessiyasında qaldırılmış, Sovetlər Birliyinin süqut etmədiyi bir vaxtda cəsarətli addım atılaraq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır. Həmçinin sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursat və texnikanın Naxçıvanda saxlanılması şərtilə buradan çıxarılmış, onun bazasında ilk milli ordu yaradılmışdır. Göründüyü kimi, 1990-1993-cü illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası milli azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı olmuşdur. Şübhəsiz ki, bu mübarizənin mərkəzində ulu öndər Heydər Əliyev dayanırdı. Onun bənzəri olmayan vətənpərvərliyi, siyasi iradəsi və qətiyyəti sayəsində Azərbaycan ikinci dəfə əldə etdiyi dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas olmuş, ölkəmiz, sözün həqiqi mənasında, tam müstəqilliyə qovuşmuşdur.

Bildirilmişdir ki, ötən əsrin əvvəllərində – müstəqilliyin elan edildiyi 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək olan dövrdə dövlət müstəqilliyi nəinki möhkəmləndirilmiş, əksinə, Azərbaycan qısa müddətdə bu müstəqilliyi əldən vermək təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz belə bir təlatümlü dövrdə xalq öz xilaskarının – ümummilli lider Heydər Əliyevin siyasi rəhbərliyə qayıtmasını tələb etdi. Ulu öndərin 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıdışı ilə xalqımız müstəqilliyi sözdə deyil, əməli fəaliyyətdə, real inkişafda, sosial rifahda yaşamağa başladı. Bundan sonra müstəqilliyimizin möhkəmləndirilməsi, əbədi xarakter alması istiqamətində mühüm tədbirlərin reallaşdırılmasına başlanıldı.

Vurğulanmışdır ki, ulu öndər Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu. Bu gün ölkəmizin, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının intibahı məhz müstəqilliyimizin parlaq bəhrələridir.

Sonra məruzə ətrafında kitabxananın şöbə müdiri Tamella Əsgərovanın və kitabxanaçı Röya Mustafayevanın çıxışları olmuşdur.

Tədbirə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Aytəkin Qəhrəmanova yekun vurmuşdur.

Sonda "Ümummilli lider Heydər Əliyev və Naxçıvan" adlı film nümayiş etdirilmiş, kitabxanada təşkil edilmiş sərgiyə baxış olmuşdur.

## Muxtar respublikada elektrik enerjisi ilə təminat yüksək səviyyədədir

***Abonentlərin etibarlı elektrik enerjisi ilə təmin olunması istiqamətində həyata keçirilən tədbirlər bu ilin ilk 9 ayında da uğurla davam etdirilib. Ötən dövr ərzində Babək rayonunda yeni 1260 kilovolt-amper güclü 2 transformatorlu müasir avadanlıqlar, mühafizə və avtomat qurğular qoyulub, 35/10 kilovoltluq "Kərimbəyli" transformator yarımstansiyası tikilib istismara verilib.***

Bu məlumatı qəzetimizə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov verib.

Agentlik rəhbəri onu da bildirib ki, Kəngərli rayonu ərazisində 110/35/10 kilovoltluq 35 meqavolt-amper güclü 2 transformatorlu müasir yarımstansiyanın, 10 kilometr uzunluqlu 110 kilovoltluq, 4 kilometr uzunluqlu 35 kilovoltluq, ikidövrəli elektrik verilişi xətlərinin tikintisinə başlanılıb, zəruri avadanlıqlar alınıb, 10 meqavolt-amper güclü transformator sifariş verilib. Eyni zamanda 26 ədəd yeni transformator yarımstansiyası quraşdırılıb, 60 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətləri çəkilib, 20 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik xətləri kabel xətləri ilə əvəz edilib. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexləri lazımi materiallarla təmin edilib, 101 ədəd 35/6-10 və 10/04 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qaytarılıb. Əsas avadanlıq və materialların birbaşa xarici ölkələrin istehsalçı müəssisə və təşkilatlarından alınıb gətirilməsi işləri davam etdirilib.

Baş verə biləcək qəza hallarının vaxtında aradan qaldırılmasında operativliyi təmin etmək məqsədilə mütəxəssislərdən ibarət təmir-bərpa briqadalarının fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılıb. İstehsal olunan elektrik enerjisindən səmərəli istifadə edilməsi və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsində mühüm rol oynayan sayğacların quraşdırılması işi də diqqət mərkəzində saxlanılıb. Muxtar respublikada sakinlərin ev və mənzillərinə digital elektron sayğaclar qoyulub, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib.

Əhali arasında aparılan maarifləndirici söhbətlər öz bəhrəsini verib, cari ilin 9 ayında 7 faiz texniki itki nəzərə alınmaqla, 315 milyon 670 min kilovat-saat elektrik enerjisi sərf olunub, sərf olunan elektrik enerjisinin dəyəri 99,40 faiz ödənilib.

## Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirirlər

***Dünən Şahbuz Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Külüs kəndində ətraf mühitin qorunmasına, təbii qazdan, elektrik və ya istilik enerjisindən düzgün istifadə qaydalarına həsr olunmuş tədbir keçirilib.***

Kənd mərkəzində keçirilən tədbirdə rayon prokuroru, ədliyyə müşaviri Ramiz Novruzov "Ekoloji cinayətlər", həmçinin "Təbii qazdan, elektrik və ya istilik enerjisindən qanunsuz istifadəyə görə cinayət və inzibati məsuliyyət" mövzularında çıxış edib. Qeyd olunub ki, ölkəmizdə son illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilib, təbiətin qorunması sahəsində mühüm addımlar atılıb. Nəzərə çatdırılıb ki, ekologiyamıza, sağlamlığımıza ciddi təsiri olan ətraf mühitin qorunması günümüzün vacib məsələlərindən biri olduğu unudulmamalı və bu işdə hər kəs vətəndaşlıq borcunu yerinə yetirməyə çalışmalıdır.

Ramiz Novruzov təbii sərvətlərdən qanunsuz istifadə halları ilə əlaqədar İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələr barədə iştirakçılara məlumat verib, Azərbaycan Respublikasının Konstitusiyasında ekoloji münasibətləri tənzimləyən normaların olduğunu qeyd edib.

Təbii qazdan və elektrik enerjisindən qanunsuz istifadəyə görə cinayət və inzibati məsuliyyət haqqında da danışan rayon prokurorunun sözlərinə görə, böyük dövlət qayğısı nəticəsində fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunmuş muxtar respublikada bu sahədə qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. "Hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir", – deyən rayon prokuroru bildirib ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni maddə – "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması" adlı maddə əlavə olunmaqla cinayət qanunvericiliyində bir sıra əməllər cinayət məsuliyyəti kimi təsbit edilib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Gənclər hərbi xidmətə yola salınır

Oktyabrın 15-də Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib. "Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2014-cü il tarixli Sərəncamına əsasən, hərbi xidmətə çağırılan gənclərin yola salınması münasibətilə təşkil edilmiş mərasimi giriş sözü ilə idarənin rəis müavini, polkovnik-leytenant Zahid Əliyev açıb. Sonra Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov çıxış edərək bildirib ki, Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan oğlunun müqəddəs vəzifəsidir. Bu Vətən uğrunda yüzlərlə qəhrəman oğul və qızlarımız canından keçib, şəhidlik zirvəsinə ucalıb. Müstəqilliyimizin daimi olmasının qarantı məhz güclü ordumuzdur. Buna görə də hər biriniz layiqincə xidmət etməli, Ali Baş Komandanın döyüş əmrinə hər an hazır olmalısınız.

1941-1945-ci illər müharibəsi veteranı Sultan İsmayılov çağırışçı gənclərə tövsiyələrini bildirib, Milli Ordumuzda xidmət keçməyin qürurlu bir hiss olduğunu vurğulayıb.

Övladını hərbi xidmətə yola salan valideyn Fəxrəddin İsmayılov bu günün qəlbində qürur hissi oyatdığını dilə gətirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Turqut Babayev Vətən torpaqlarının keşiyində sayıq dayanacaqlarına, komandirlərin əmr və göstərişlərinə vaxtında və layiqincə əməl edəcəklərinə söz verib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Elxan Əliyev çıxış edərək ölkəmizdə gənclərə göstərilən dövlət qayğısından danışıb, hərbi hissələrdə xidmət üçün hərtərəfli şəraitin yaradıldığından bəhs edib və bütün çağırışçıları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, həmin gün Babək rayonunda da çağırışçıların hərbi xidmətə yola salınması mərasimi keçirilib.




# Bankların cari ilin doqquz ayındakı fəaliyyəti uğurludur

## Əsas diqqət nağdsız ödənişlərin həcminin artırılmasına yönəldilib

*Muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən həyata keçirilən kreditləşmə prosesi 2014-cü ilin ilk doqquz ayı ərzində artan templə davam etmişdir. Kredit qoyuluşu, əsasən, kiçik və orta sahibkarlığın, kənd təsərrüfatının və iqtisadiyyatın digər sahələrinin inkişafına yönəldilmişdir ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artmasına və yeni iş yerlərinin yaranmasına, rəqabətədavamlı daxili bazarın formalaşmasına stimul olan amillərdir.*

1 oktyabr 2014-cü il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 98,1 milyon manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 14,9 milyon manat, uzunmüddətli kredit qoyuluşu 83,2 milyon manat təşkil edir.

Bank və digər kredit təşkilatları tərəfindən 2014-cü ilin ilk 9 ayı ərzində 41,6 milyon manat kredit verilmişdir ki, bunun da 26,1 milyon manatını uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditin 13,2 milyon manatı kənd təsərrüfatının, o cümlədən 3,5 milyon manatı bitkiçiliyin, taxılçılığın, kartofçuluğun və bostan-tərəvəz məhsulları istehsalının, 498,8 min manatı isə arıçılıq və quşçuluğun payına düşür. Ümumilikdə, verilmiş kreditlərin 2,3 milyon manatı sənaye, 6,5 milyon manatı tikinti, 3,6 milyon manatı kommersiya, 16 milyon manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditləri və digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilmişdir.

2014-cü il 1 oktyabr tarixə əhalinin banklardakı əmanətlərinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 milyon manat artaraq 6,2 milyon manat təşkil etmiş və ya 35 faiz artmışdır. Xarici valyuta ilə cəlb olunan əmanətlərin həcmi isə 1,5 milyon manat təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 495 min manat və ya 47 faiz artım deməkdir.

Banklar tərəfindən 2014-cü il 1 oktyabr tarixə 2232 hüquqi, 32 min 966 fiziki şəxs olmaqla, 35 min 198 müştəriyə xidmət göstərilmişdir. Xidmət olunan hesabların 32 min 163-ü aktiv hesab olmuşdur ki, onların 1310-u hüquqi, 30 min 853-ü fiziki şəxsdir.

2014-cü ilin ilk doqquz ayında 91 hüquqi, 14 min 759 fiziki şəxs olmaqla, 14 min 850 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 14 min 794-ü aktiv hesabdır.

Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən bankların əməliyyat kassalarına daxil olan nağd pul hasilatını artırmaq istiqamətində də lazımi işlər görülmüşdür.

1 oktyabr 2014-cü il tarixə bankların kassa mədaxili 218 milyon manat olmuş, bankların kassa məxarici isə 531,5 milyon manat təşkil etmişdir.

Cari ilin ilk doqquz ayı ərzində Mərkəzi Bankın ehtiyat fondundan bankların nağd pula olan tələbatının ödənilməsi məqsədilə 411,4 milyon manat nağd pul dövriyyəyə buraxılmışdır.

Elektron ödəniş sistemlərindən istifadənin genişləndirilməsi, nağdsız hesablaşmaların həcminin artırılması istiqamətində də bir sıra işlər görülmüş, iqtisadi sahədə fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin həcminin azaldılması, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların və bankomatların quraşdırılması daim diqqət mərkəzində saxlanılmışdır.

Bəhs olunan dövrdə POS-terminalların quraşdırılması davam etdirilmiş, 1 oktyabr 2014-cü il tarixə 817 ədəd olmaqla keçən ilin müvafiq dövrü ilə müqayisədə POS-terminalların sayı 605 ədəd artmışdır.

Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı ötən ilin müvafiq dövründə 178 min 992 idisə, hazırda ödəniş kartlarının ümumi sayı 198 min 747 ədədə çatmışdır. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 19 min 755 ədəd və ya 11 faiz çoxdur.

Muxtar respublika sakinlərinin ödəniş kartları vasitəsilə vergi və rüsumları, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və yerli şöbələrinə sosial sığorta haqlarını, mobil və stasionar rabitə üzrə xərcləri, internet ödənişləri və gömrük rüsumlarını elektron ödəniş formasında apara bilmələri üçün lazımi infrastruktur yaradılmışdır. 2014-cü ilin ilk doqquz ayı ərzində "Naxçıvanqaz" İstehsalat Birliyində banklar tərəfindən 39 ədəd POS-terminal quraşdırılmışdır. Eyni zamanda bu xidmətləri göstərən "Naxçıvanpoçt" MMC-nin filial və şöbələrində quraşdırılmış 95 ədəd POS-terminal vasitəsilə də vətəndaşlar kommunal ödənişləri həyata keçirə bilərlər.

"Naxçıvanqaz" İstehsalat Birliyi və Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən vətəndaşların kommunal ödənişlərini kartlardan istifadə edərək internet üzərindən həyata keçirmələri təmin edilmişdir.

Bütün bunlarla yanaşı, 2014-cü ilin ilk doqquz ayı ərzində elektron ödəniş alətlərinin və nağdsız hesablaşmaların həcminin artırılması məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən mütəmadi olaraq yerli mətbuat, radio və televiziya vasitəsilə müvafiq maarifləndirmə işləri aparılmışdır.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və digər xidmət müəssisələrində quraşdırılmış POS-terminallardan müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılmasının monitorinqi keçirilmiş, nağdsız əməliyyat aparmayan mal satan və xidmət göstərən sahibkarlarla xüsusi maarifləndirici görüşlər təşkil edilmiş, müvafiq tövsiyələr verilmişdir.

Eyni zamanda Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi əməkdaşlarının birgə iştirakı ilə muxtar respublikanın təhsil müəssisələrində, bir sıra nazirlik və digər dövlət orqanlarında çalışan ödəniş kartı istifadəçiləri ilə görüşlər keçirilmiş, onlara ödəniş kartlarından istifadənin üstünlükləri barədə məlumatlar verilmiş və nağdsız ödənişlərin iqtisadiyyatın inkişafında nə dərəcədə mühüm rol oynadığı bildirilmişdir. Görüşlər zamanı nağdsız ödəniş alətlərindən istifadə vərdişlərinin təbliği məqsədilə videoçarxlar nümayiş etdirilmiş, bu istiqamətdə əsaslı rol oynayan internet resursları haqqında məlumatlar verilmiş və internet üzərindən ödənişlərin həyata keçirilməsi əyani şəkildə iştirakçıların diqqətinə çatdırılmışdır. Bunlarla yanaşı, ödəniş alətlərinin üstünlükləri ilə bağlı təbliğat materialları, bukletlər dərc edilərək muxtar respublikada fəaliyyət göstərən idarə və müəssisələrdə çalışan ödəniş kartı istifadəçilərinə paylanmışdır.

Nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə muxtar respublikada nağdsız aparılan əməliyyatlara görə müxtəlif güzəştlər tətbiq edilmiş, nağdsız əməliyyat aparılmasında fəal olan şəxslərə bonuslar və mükafatlar verilmişdir.

Nağdsız ödəniş alətləri infrastrukturunun genişləndirilməsi, əhalinin bu istiqamətdə maarifləndirilməsi və həyata keçirilən digər tədbirlər nağdsız ödənişlərin həcminin artması ilə nəticələnmişdir. Belə ki, təkcə bu ilin sentyabr ayı ərzində banklar tərəfindən muxtar respublikada quraşdırılmış POS-terminallar, internet və digər ödəniş sistemləri vasitəsilə aparılan nağdsız əməliyyatların həcmi 1 milyon 547 min manat təşkil etmişdir.

***Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin mətbuat xidməti***

*Ölkəmizdə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və əhalinin maddi rifahının daha da yaxşılaşdırılması məqsədilə sənaye məhsulları istehsalı sektoruna xüsusi önəm verilir. Muxtar respublikamızda da bazar iqtisadiyyatının tələblərinə uyğun sahibkarlıq mühiti formalaşdırılır, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə dövlət maliyyə dəstəyi göstərilir. Bunun nəticəsidir ki, özəl sektorun Ümumi Daxili Məhsuldakı payı ilbəil artır.*

# "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi"ndə istehsal olunan məhsullar xarici bazara çıxarılır



Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti də son illər yaradılan sənaye müəssisələrindəndir. Sənaye şəhərciyində inzibati bina, istehsal sexləri, yeməkxana, satış şöbəsi üçün bina, xammal və hazır məhsulun saxlanılması məqsədilə anbar tikilib istifadəyə verilib.

Müəssisədə keyfiyyətli müxtəlif meyvə şirələri, meyvə quruları, şərab, halva istehsal olunur. Müəssisənin illik istehsal gücü 120 dekalitr meyvə şirələri və şərab, 180 ton şirniyyat məhsullarıdır. Burada İtaliya və Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Naxçıvanda yetişdirilən meyvələrdən tam gigiyenik qaydada yüksəkkeyfiyyətli müxtəlif həcm və çeşidlərdə alma, ərik, şaftalı, gilənar, üzüm və qarışıq tərkibli nektarlar istehsal edilir. Həmin məhsullar "Badamlı" əmtəə nişanı ilə satışa çıxarılır.

Diyarımızın ən qədim əkinçilik sahələrindən biri olan üzümçülüyün inkişaf perspektivləri nəzərə alınaraq qurulan şərab emalı sahəsində istehsal prosesi tam avtomatlaşdırılıb. Müəssisədə istehsal olunan 4 çeşiddə kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları "Mirvari" və "Qızıl damla" adları ilə satışa çıxarılır. Müəssisə həmçinin 3 çeşiddə müxtəlif çəki və formalarda küncüdlü halva istehsalı ilə də məşğuldur. Əsasən, sadə, kakaolu və qarışıq növdə istehsal olunan halva yüksək keyfiyyətə malikdir. Çərəzqovurma və paketləmə sahəsində də texnoloji proseslərə ciddi əməl olunur, günəbaxan, qabaq, noxud, püstə və qarışıq çeşidli çərəzlər təmizlənib qovrularaq 90 və 200 qramlıq paketlərdə qablaşdırılır.

2011-ci ilin iyul ayından yeni meyvə nektarlarının karton taralara qablaşdırılması layihəsinin həyata keçirilməsinə başlanılıb. Bunun üçün yeni bina inşa olunub və burada İsveçin "Tetra Pak" firmasının istehsal gücü saatda 7 ton 1 litrlik və 1600 litr 200 millilitrlik taralar olan müasir texnoloji avadanlıqları quraşdırılıb. 2012-ci ilin mart ayından isə istehsala başlanılıb. Nəfis tərtibatla bəzədilmiş karton taraların üzərində Azərbaycan, ingilis və rus dillərində məhsulun istehsal və son istifadə tarixi, tərkibi, istifadə qaydası, saxlanma şəraiti, standart göstəriciləri və mənşəyi haqqında məlumatlar göstərilir.

Daxili bazarın tələbatına uyğun yeni çeşidlərdə yerli ərzaq məhsullarının istehsalı da diqqət yetirilən sahələrdən olub, 2013-cü ildən tahin (küncüd yağı) və bəkməz istehsalına başlanılıb. Onu da qeyd edək ki, yerli xammaldan hazırlanan məhsullar yüksəkkeyfiyyətli qida məhsulu olmaqla yanaşı, həm də müalicəvi əhəmiyyətə malikdir. Hazırda həmin məhsullar sınaq məqsədilə istehsal olunur. Gələcəkdə müəssisənin istehsal gücünün artırılması və məhsulların xarici bazara çıxarılması nəzərdə tutulur.

Müəssisədə istehsal olunan məhsulların xammalı, əsasən, yerli sahibkarlardan alınır ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməmələrinə öz müsbət təsirini göstərir. Qeyd edək ki, istehsal olunan məhsullar ölkəmizin digər regionlarında da satışa çıxarılır, xarici ölkələrə ixrac olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, müəssisədə möhkəm baza yaradılıb, bütün istehsal prosesi İSO keyfiyyətli idarəetmə sisteminin və ərzaq təhlükəsizliyi tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 22000-2005 və İSO 9001-2008 sertifikatlarına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb. Məlumat üçün qeyd edək ki, ötən ildən "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal edilən meyvə nektarları Gürcüstan bazarına çıxarılır.

**Kərəm HƏSƏNOV**

# Şahbuzun torpaq mülkiyyətçiləri təsərrüfat ilini uğurla başa vururlar

Muxtar respublikanın dağlıq bölgələrindən biri olan Şahbuz rayonunda əkinçiliyin inkişafına yüksək önəm verilir. Çünki hər bir şahbuzlu öz həyat tərzinin yaxşılaşmasında bu sahənin bəhrəsini görür və dövlətimizin yaratdığı şəraitdən istifadə edərək məhsul bolluğu yaradılmasına çalışır. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası istiqamətində bölgədə həyata keçirilən tədbirlər cari ilin ötən dövrü ərzində də davam etdirilərək bir sıra uğurlu nəticələr əldə olunub. Bölgədə daha çox inkişaf etdirilən əkinçilik sahələrindən biri taxılçılıqdır. Ötən ilin payızında və cari ilin yazında 2014-cü ilin məhsulu üçün torpaq mülkiyyətçiləri 1010,3 hektar sahədə buğda, 320,7 hektar sahədə arpa əkiblər. Taxılçılıqla məşğul olanların müxtəlif dövlət yardımları, kreditlər, məhsuldar toxum sortları, texnika, suvarma suyu ilə təchizatı diqqət mərkəzində saxlanılıb, sahələrə aqrotexniki qaydalar əsasında qulluq edilməsinə şərait yaradılıb. Çəkilən zəhmət isə Şahbuz taxılçılarının xeyli gəlir əldə etmələri ilə nəticələnib. Belə ki, sahələrdən 2898 ton buğda, 709 ton arpa götürülüb. Hektarın orta məhsuldarlığı müvafiq olaraq 29,7 və 22,1 sentner təşkil edib.

2014-cü ilin nəticələri şahbuzluları 2015-ci ilin bol taxıl məhsulunun əsasını qoymağa bir daha ruhlandırıb: onlar şum qaldırılmasını və payızlıq taxıl əkinini optimal müddətdə başa çatdırmağa çalışırlar.

Məlumatda o da vurğulanır ki, bölgədə ciddi önəm verilən əkinçilik sahələrindən biri də kartofçuluqdur. İlin ilk 9 ayı ərzində 461 hektar kartof əkini sahəsinin 370 hektarından 5735 ton kartof tədarük edilib. Rayon əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatını daxili imkanlar hesabına ödəmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahədə zəruri tədbirlərin həyata keçirilməsini təmin edib. Bölgənin torpaq mülkiyyətçiləri həm öz tələbatlarını ödəmək, həm də daxili bazara töhfələrini vermək üçün səylərini artıraraq uğurlu nəticələr qazanıblar. Barverən meyvə bağlarından 1285 ton meyvə, üzüm bağlarından 9,2 ton üzüm, 284 hektar tərəvəz əkini sahəsinin 265 hektarından 4404 ton məhsul tədarük edilib. Meyvə bağlarında və tərəvəz əkini sahəsində məhsul tədarükü davam edir.

Rayonda son illər bostan məhsulları istehsalına da maraq artıb. Cari ildə 6 hektar sahədən 69,7 ton məhsul yığılıb. Digər əkinçilik sahələrində də uğurlu nəticələrə nail olunub. 4 hektar günəbaxan əkini sahəsindən 8 ton, 3 hektar qarğıdalı əkini sahəsindən 11,9 ton məhsul tədarük edilib. Bütün əkinçilik sahələrində əldə olunan nəticələr ötən ilin müvafiq dövrü ilə müqayisədə daha yüksəkdir. Aqrar sahədə qazanılan bütün bu uğurlar belə deməyə əsas verir ki, şahbuzlular ən qiymətli sərvət olan torpağı özlərinin daimi iş yerinə çeviriblər. Onlar torpağı qorumağı bacardıqları kimi, əkib-becərməyi də bacarırlar.

**M.MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi ilə əlaqədar həyata keçirilən tədbirlər sırasında muxtar respublikanın yaranması, inkişaf yolu, Azərbaycanın ictimai-siyasi həyatında tutduğu yer və digər məsələlərlə əlaqədar hazırlanan monoqrafiyalar və kitabların nəşri xüsusi yer tutur. Bu baxımdan tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlinin "Elm və təhsil" nəşriyyatında yüksək poliqrafik səviyyədə, böyük tirajla, akademik İsmayıl Hacıyevin məsləhətçiliyi, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin redaktorluğu ilə çap etdirdiyi və Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr etdiyi "Naxçıvan Muxtar Respublikası konstitusiyalarda" kitabı özünün məzmunu və sanbalı ilə diqqəti cəlb edir. Xüsusi olaraq qeyd etmək istərdim ki, kitabın müəllifi – gənclik yaşlarından tanıdığım, Naxçıvan Muxtar Respublikasının tarixinə dərindən bələd olan Elman Cəfərli muxtar respublika tarixinin, demək olar ki, toxunulmamış bir probleminə müraciət etmiş, zəngin arxiv, ədəbiyyat və internet materialları əsasında sanballı əsər ərsəyə gətirmişdir.*




# Naxçıvan Muxtar Respublikasının hüquqi-siyasi statusu haqqında dəyərli əsər

Naxçıvan Muxtar Respublikasının hüquqi-siyasi əsaslarının Azərbaycan Konstitusiyasında və muxtar qurumun özünün müxtəlif vaxtlarda qəbul olunmuş əsas qanunlarında – konstitusiyalarında hansı şəkildə əks olunması ilk dəfə olaraq elmi dövriyyəyə məhz bu kitabda daxil edilmişdir. Qətiyyətlə demək olar ki, müəllif kitabı yazmaqda qarşıya qoyduğu məqsədə tamamilə nail olmuş, yüksək elmi səviyyəli bir əsər hazırlamışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası haqqında fikirləri ilə başlanan kitabda əvvəlcə muxtariyyətə gedən yola nəzər salınmış, XIX yüzillikdə ermənilərin bu ərazilərə köçürülməsi, Azərbaycana qarşı ərazi iddialarına başlamaları, bununla əlaqədar azərbaycanlı əhaliyə qarşı törətdikləri soyqırımlar haqqında müfəssəl məlumat verilərək oxucu diqqəti I Dünya müharibəsindən sonra Azərbaycanda, o cümlədən Naxçıvanda yaranmış gərgin vəziyyətə yönəldilmişdir. Yaranmış vəziyyəti dərindən təhlil edən müəllif haqlı olaraq belə bir nəticəyə gəlmişdir ki, yerli əhali Naxçıvana gələn türk ordusunun köməyi ilə erməni təcavüzünün qarşısını almış, Naxçıvanın Ermənistana birləşdirilməsinə yol verməmişdir. Həmçinin əhalinin inadlı mübarizəsi, bir sıra görkəmli şəxsiyyətlərin, xüsusilə Behbud ağa Şahtaxtinskinin apardığı məqsədyönlü işlər, 1921-ci ildə bağlanan Moskva və Qars müqavilələri Naxçıvanın muxtariyyət statusu məsələsini həll etmiş və 9 fevral 1924-cü ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılmışdır.

Dosent Elman Cəfərli əsərdə Naxçıvan Muxtar Respublikasında 1995-ci ilin dekabrından başlayaraq baş verən dəyişiklikləri, sosial-iqtisadi, elmi-mədəni inkişafı təhlil etməklə bərabər, keçilən yolun muxtar respublikada dünyəvi, demokratik, hüquqi muxtar dövlət quruculuğunun konstitusion əsaslarının yaradılması və hüquqi normaların tətbiqinin başlanması ilə əlamətdar olduğuna diqqət çəkmişdir. Müəllif bu məsələyə həsr olunmuş oçerkdə müstəqillik dövründə Naxçıvanda muxtar dövlət quruculuğu prinsipləri və idarəetmə modelini Avropa təcrübəsi ilə müqayisə və təhlil edərək belə bir fikrə gəlmişdir ki, onlarla müqayisədə Naxçıvan öz siyasi idarəçilik sistemində daha geniş muxtariyyətə malikdir. Müəllifə görə, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının muxtariyyətin idarə edilməsi üçün normal hüquqi əsaslar yaratmasının nüfuzlu Venesiya Komissiyası tərəfindən model kimi qiymətləndirilməsi, qitədəki digər muxtariyyətlərə nümunə kimi göstərilməsi, birmənalı olaraq, 1995-2014-cü illərdə Naxçıvanda yaranıb formalaşan və artıq beynəlxalq təcrübədə yayılan muxtar dövlətçilik ənənələrinin nəticəsidir. Həmçinin müəllif belə bir qənaətə gəlmişdir ki, son 19 ildə muxtar respublika rəhbəri tərəfindən yürüdülən uğurlu dövlət quruculuğu siyasəti Naxçıvan muxtar dövlətçiliyini beynəlxalq aləmə ən optimal model kimi təqdim edir.

Kitabın üstün və diqqəti cəlb edən cəhətlərindən biri də Naxçıvanın muxtariyyəti ilə əlaqədar qəbul olunmuş bir sıra hüquqi aktların mətninin və bu sahədə imzalanmış müqavilələrin Naxçıvanla bağlı hissələrinin çıxarış şəklində əsərə daxil edilməsidir. Elman Cəfərli həmin sənədlərdən 1924-cü il əsasnaməsinin, muxtariyyət dövründə – 1926, 1937, 1978 və 1998-ci illərdə qəbul olunmuş konstitusiyaların mətnini, həmçinin Azərbaycan SSR-in 1927, 1937, 1978-ci il və müstəqil Azərbaycan Respublikasının 1995-ci il konstitusiyalarında Naxçıvanın muxtariyyət statusu ilə bağlı maddə, fəsil və bölmələri, Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsində həlledici rola malik Moskva və Qars müqavilələrinin Naxçıvanla bağlı maddələrini və əlavələrini çıxarış şəklində ilk dəfə olaraq bu kitabda cəmləşdirmişdir. Həmçinin əsərdə SSRİ konstitusiyalarında (1924, 1936, 1977) muxtar respublikaların fəaliyyəti ilə əlaqəli maddələrdə əks olunan hüquqi normaların ətraflı təhlili aparılmış və oxuculara təqdim olunmuşdur.

Naxçıvanın sovetləşməsindən sonra qəbul edilən dövlət rəmzlərinin, o cümlədən dövlət bayraqları haqqında məlumatların, onların fotoşəkillərinin kitaba daxil edilməsi də təqdirəlayiqdir. Kitabdan məlum olur ki, Naxçıvan Muxtar Respublikasının indiyədək 9 bayrağı olmuşdur. Onlardan 8-i sovetlər birliyi dövründə qəbul edilmiş bayraqlar, doqquzuncu isə ümummilli lider Heydər Əliyevin təklifi ilə 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağıdır. Kitabda Naxçıvan Muxtar Respublikasının dövlət rəmzlərindən olan Dövlət gerbləri haqqında da məlumat verilməklə yanaşı, Dövlət himninin mətni də özünə yer almışdır.

Əsərin ən dəyərli cəhətlərindən biri də Naxçıvan bölgəsi ilə bağlı 8 xəritənin, o cümlədən Araz-Türk Respublikasının (noyabr 1918-mart 1919), Şərur-Dərələyəz qəzasının (1918-1920), Naxçıvan qəzasının (1918-1920), Naxçıvan Sosialist Sovet Respublikasının (1920-1922), Naxçıvan Sovet Sosialist Respublikasının (1924-1929), Naxçıvan ölkəsinin (1924), Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (1930-1991) və Naxçıvan Muxtar Respublikasının (2009) xəritələrinin mətnə əlavə olunmasıdır. Kitabda verilən məlumatlardan da aydın olduğu kimi, muxtariyyət ərəfəsində Azərbaycana məxsus bir sıra torpaqlar Ermənistana verildiyi kimi, muxtariyyətdən sonra da bu proses davam etmiş, Zaqafqaziya Federasiyası MİK-in 18 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının Xaçik, Horadiz, Oğbin, Sultanbəy, Ağxəç, Səs, Almalı, İtqıran və Kilid kənd torpaqlarının bir hissəsi (657 kvadratkilometr) Ermənistana verilmişdir. Kitaba daxil edilən xəritələr ermənilərə verilmiş bu torpaqlar haqqında oxucuda aydın təsəvvür yaradır.

Sonda Naxçıvan Muxtar Respublikasının 1937-ci il Konstitusiyasında özünə yer alan, ancaq anlaşılması çətinlik törədən 43 sözün müasir Azərbaycan dilində mənası və ya izahının verilməsi də kitabın məziyyətlərindən biri kimi qeyd olunmalıdır.

*Düşünürük ki, müəllifin gərgin əməyinin məhsulu olan bu kitab geniş oxucu kütləsi, xüsusilə tədqiqatçılar tərəfindən maraqla qarşılanacaq, elmi ictimaiyyətin diqqətini cəlb edəcək və Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunan əsərlər sırasında layiqli yer tutacaqdır.*

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA-nın müxbir üzvü***

# Göstərilən dövlət qayğısı peşə təhsilinə əsaslı stimuldur



*Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi*

***Qloballaşmanın vüsət aldığı informasiya cəmiyyətində şəxsiyyətin yetişməsində genetika və mühitlə yanaşı, təhsilin də rolu çox böyükdür. Təhsil təkcə ölkədaxili ziyalı mühitin formalaşmasına xidmət etmir, eyni zamanda beynəlxalq aləmdə ölkənin rolunu müəyyən edən əsas amillərdən biridir. Təhsil ocaqları uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, səviyyəli mütəxəssis kimi yetişdirmək üçün mövcuddur. Bu mənada bəşəriyyət tarix boyu təhsilə özünün mənəvi təkamül gücü kimi baxmışdır.***

Azərbaycanda da hələ ötən əsrin 70-ci illərindən etibarən təhsilin inkişafı ön plana çəkilmiş, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində təhsilin bütün pillələri üzrə mühüm dəyişikliklər həyata keçirilmişdir. Dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda təhsil özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, dünya təhsil sisteminə inteqrasiya olunmuşdur.

Azərbaycanda təhsil sahəsində qazanılan uğurlar və əldə olunan nailiyyətlər içərisində Naxçıvan təhsilinin özünəməxsus rolu və payı vardır. Muxtar respublikada təhsilə göstərilən yüksək diqqət və qayğı sayəsində təhsilin bütün pillələri özünün ən yüksək inkişaf mərhələsinə çatmışdır.

Naxçıvan Muxtar Respublikasında peşə təhsilinin də inkişaf strategiyası hələ müstəqil dövlət quruculuğunun ilk illərində ulu öndər Heydər Əliyev tərəfindən hazırlanmış və həmin strategiya indi də müvəffəqiyyətlə davam etdirilir. Günügündən yeniləşən Naxçıvan özünün hazırkı sürətli inkişaf dövründə ötən hər ili sosial-iqtisadi həyatda əldə olunan mühüm nailiyyətlərlə başa vurur. Bu illərdə uğurla həyata keçirilən dövlət proqramları əsasında muxtar respublikanın sosial-iqtisadi inkişafına uyğun olaraq bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ixtisaslı kadrlara yaranan tələbatın ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli texniki peşə təhsili sisteminin formalaşdırılması mühüm əhəmiyyət daşıyır.

Dövlət proqramlarının tələblərinin yerinə yetirilməsi və bu gün muxtar respublikamızın həyatında baş verən sosial-iqtisadi dəyişikliklər, yeni sənaye və xidmət sahələrinin yaradılması, müasir informasiya texnologiyalarının tətbiqi qədim diyarımızda peşə təhsilinin inkişafını və bu yolla ixtisaslı işçi kadrların yetişdirilməsini də zəruri etmişdir. Bu mənada peşə təhsili sisteminin genişləndirilməsi daim diqqət mərkəzində olmuş, 2009-cu ildə Naxçıvan şəhərində peşə liseyi fəaliyyətə başlamışdır. Liseydə şagirdlərin peşə hazırlığını təmin etmək üçün lazımi şərait yaradılmışdır. Həmçinin şagirdlər yataqxana və gündəlik isti yeməklə təmin olunurlar. Peşə liseyi və peşə məktəblərində yaradılan bu şərait bazar iqtisadiyyatına uyğun yeni ixtisaslar açılmasına stimul yaradır və muxtar respublikamızda ixtisaslı işçi kadrların yetişdirilməsində mühüm rol oynayır.

Sürətlə inkişaf edən qabaqcıl texnologiyalardan istifadə edə bilən, savadlı, səriştəli kadrlara, həmçinin bazar iqtisadiyyatı ilə əlaqədar sahibkarlıq, menecment, ofisiant, turizm bələdçisi, kompüter operatoru və digər ixtisaslara olan ehtiyacları ödəyə biləcək texniki peşə təhsili şəbəkəsinin genişləndirilməsi və onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində muxtar respublikada mühüm tədbirlər həyata keçirilir.




*Şərur Texniki-Peşə və Sürücülük Məktəbi*

Görülmüş işlərin nəticəsidir ki, hazırda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində 4 peşə məktəbi və 1 peşə liseyi fəaliyyət göstərir.

2014-2015-ci tədris ili üçün həmin peşə təhsili müəssisələrinə 500 nəfər şagird qəbulu həyata keçirilmişdir. Ümumilikdə, peşə təhsili müəssisələrində 19 ixtisas üzrə 650 nəfər təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 72 nəfər müəllim və istehsalat təlimi ustası məşğul olur. Məlumat üçün qeyd edək ki, ötən tədris ilində muxtar respublikanın peşə təhsili müəssisələrini 382 məzun bitirmiş və onların əksəriyyəti istehsalatın müxtəlif sahələrində ixtisaslı kadr kimi əmək fəaliyyətinə başlamışdır.

İqtisadiyyatın inkişafı ilə əlaqədar ən müasir elektron texnologiyalarla təchiz olunmuş maşın və mexanizmlərin muxtar respublikamıza gətirilməsi və iqtisadiyyatın müxtəlif sahələrində istifadə edilməsi onların təhsilli və ixtisaslı kadrlar tərəfindən idarə olunmasını tələb edir. Bu məqsədlə Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bu da məktəbdə tədrisin keyfiyyətinin yüksəldilməsinə, təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanmasına geniş imkanlar açmışdır. Məktəbdə nəzəri və təcrübi təlimlər keçilir. Bunun üçün 8 avtotrenajordan istifadə olunur. Təlim kursu başa çatdıqdan sonra müdavimlərin bilik, bacarıq və vərdişlərinin, eləcə də sürücülük hazırlıqlarının səviyyəsini müəyyən etmək üçün imtahan keçirilir. 2014-cü ilin üçüncü rübündə məktəbdə 28 qrup açılmış, qruplarda 740 müdavim təhsil almışdır.

Xalqımıza məxsus milli sərvətlərimizdən olan xalçaçılıq sənətinin qorunub saxlanması və müasir dövrdə gənclərimizə aşılanması üçün bu sahə üzrə mütəxəssislərin hazırlanmasının vacibliyi, bununla yanaşı, ən müasir rabitə, informasiya texnologiyaları və xidmət sahələrinə artan tələbat yeni-yeni peşə ixtisaslarının yaradılmasını tələb edir. Bu tələbatın zəruriliyini nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıq və tövsiyələri ilə Şərur Texniki-Peşə və Sürücülük Məktəbi fəaliyyətə başlamışdır. Şərur şəhərində dünya standartlarına cavab verən, yüksək maddi-texniki baza ilə təchiz olunan və gələcəkdə muxtar respublikanın müxtəlif sahələrini əhatə edə biləcək ixtisaslı kadrların hazırlanması üçün yeni inşa olunmuş 360 şagird yerlik məktəbdə 11 elektron lövhəli sinif, 21 kompüter qoyulan kompüter sinfi, 4 ən müasir emalatxana, 83 yerlik yataqxana, yeməkxana, sürücü təlimi üçün məşq meydançası, mini-futbol meydançası və idman zalı yerləşir. İlkin mərhələdə 11 ixtisas üzrə 220 nəfər şagird qəbul edilmişdir. Real bazarın tələbləri nəzərə alınaraq qəbul qadın bərbəri, bərbər, qaz təsərrüfatı avadanlıqlarının təmiri üzrə çilingər, kompüter istifadəçisi, traktorçu-maşinist, xalçaçı, elektrik montyoru, qazanxana maşinisti, aşpaz köməkçisi, ofisiant və sürücülük peşələri üzrə aparılmışdır.

Muxtar respublikada fəaliyyət göstərən peşə təhsili müəssisələrində oxuyan şagirdlərin nəzəri biliklərinin praktik bacarıqları ilə əlaqəli şəkildə inkişaf etdirilməsi məqsədilə hər bir ixtisasa uyğun istehsalat sahəsi ilə təhsil müəssisələri arasında müqavilələr bağlanılır. Həmin müqavilələrə uyğun olaraq, şagirdlər istehsalat təlimi ustalarının nəzarəti altında ixtisaslarına uyğun sahələr üzrə istehsalat təcrübəsi keçirlər. Nəzəri biliklərin praktikada möhkəmləndirilməsini təmin edən istehsalat təcrübəsinin sonunda hər bir şagird üçün istehsalat xasiyyətnaməsi verilir ki, bu da onların buraxılış imtahanlarında iştirakına zəmanət verir. Həyata keçirilən bu proses isə əmək bazarı ilə əlaqənin daha da sıx qurulmasına və azad iqtisadi münasibətlər şəraitində müxtəlif sahələrdə ixtisaslı işçi qüvvəsinə yaranan tələbatın çevik şəkildə ödənilməsinə şərait yaradır.

Bütün bu sadalananlar muxtar respublika rəhbərinin həyata keçirdiyi uğurlu təhsil siyasətinin, təhsilimizə göstərdiyi diqqət və qayğının məntiqi nəticəsidir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Payız-qış mövsümünə hazırlığın vəziyyəti qənaətbəxşdir

### Ancaq görüləsi işlər də çoxdur

***Bir neçə ildir ki, muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər naxçıvanlıların qış mövsümünü heç bir problem olmadan başa vurmalarına imkan verir. Bu sahəyə məsul olan aidiyyəti təşkilatların öz vəzifələrini layiqincə yerinə yetirmələri üçün yaradılan şərait, sərt keçən qış mövsümünü mütəşəkkil başa vurmaq üçün əvvəlcədən lazımi işlərin görülməsi hesabına muxtar diyarımızda fasiləsiz iş rejimi təmin olunur. Hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələrdə belə təşkilatlar qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi əhali tərəfindən rəğbətlə qarşılanır.***



Bu il avqust ayının 5-də keçirilən müşavirədə də bir sıra aidiyyəti təşkilatlara tapşırıqlar verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müşavirədə çıxış edərək deyib: ***"Muxtar respublikada payız-qış mövsümünə hazırlıq daim diqqət mərkəzində saxlanılır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublika fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunur. Enerji təminatı sahəsində görülən işlərin davamı olaraq, cari ildə Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları istifadəyə verilmişdir. Haliyədə 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Bundan başqa, alternativ enerji mənbələrindən istifadə olunması istiqamətində də işlər görülür. Qaz təchizatında da ardıcıl tədbirlər görülmüş, itkini minimuma endirmək məqsədilə Naxçıvan-Şahbuz ortatəzyiqli və Naxçıvan-Sədərək yüksəktəzyiqli yeni magistral qaz kəmərləri istifadəyə verilmiş, Naxçıvan-Culfa qaz kəmərində bərpa işləri aparılmışdır".***

Ali Məclisin Sədri bildirib ki, muxtar respublikada yay mövsümündə elektrik enerjisinə olan gündəlik tələbat 80-85 meqavat, təbii qaza olan tələbat 700 min kubmetrdir. Qış mövsümündə isə elektrik enerjisi tələbatı 45-50 meqavat, təbii qaz tələbatı 1 milyon 700 min kubmetr təşkil edir. Əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinə xüsusi diqqət yetirilməli, lazımi mal-material ehtiyatı yaradılmalıdır.

Ötən müddət ərzində bu tapşırıqların icrası istiqamətində xeyli iş görülüb. Bununla bağlı Culfa rayonunda payız-qış mövsümünə hazırlıqla əlaqədar həyata keçirilən tədbirlərlə tanış olmaq üçün rayonda olduq. Öyrəndik ki, mövsüm vaxtı rayonda 82 qazanxanadan istifadə olunur. Onların 8-i kombi sistemidir. Qazanxanaların hamısına baxış keçirilib, ehtiyac olan qazanxanalarda əsaslı təmir işləri aparılaraq işlək vəziyyətə gətirilib. Baxış həm də binaların daxili istilik sistemlərini əhatə edib. Rayon mərkəzində 19 binanın zirzəmisi var. Bütün zirzəmilər təmizlənib, onların ikisində təmir işləri aparılıb. Kənd yaşayış məntəqələri də daxil olmaqla, rayon üzrə 190 təşkilatın 116-sı istilik sistemi, 18-i təbii qaz, 3-ü ayqaz, 6-sı elektrik sobası, 41-i ağ neftlə qızdırılır. Şurud və Bənəniyar kəndlərindəki quruculuq tədbirləri başa çatdırıldıqdan sonra daha 6 təşkilatda müasir istilik sistemindən istifadə olunacaq.



Payız-qış mövsümündə üzərinə daha çox vəzifələr düşən təşkilatlardan biri rayon Qaz İstismarı İdarəsidir. Öyrəndik ki, idarə tərəfindən qazpaylayıcı qurğularda təmir işləri aparılıb, filtrlər təmizlənib, klapanlar yoxlanılıb, 39 fərdi mənzilə yeni qaz xətti çəkilib, ümumilikdə, 1637 ədəd qaz sayğacı yenisi ilə əvəz edilib. Hazırda istilik qazanxanalarında mövcud reduktorların təmiri, yararsız hala düşən xətlərin bərpa olunması işi davam etdirilir. Bu dövrdə rayon Elektrik Şəbəkəsi tərəfindən də xeyli iş görülüb. Məlumat üçün bildirək ki, bu gün Culfa rayonunda 190 ədəd transformator yarımstansiyasından istifadə olunur. Payız-qış mövsümünə hazırlıqla bağlı ehtiyac duyulan 18 transformator yarımstansiyasında təmir işləri aparılıb. Dörd transformator yarımstansiyası dəyişdirilib, 2,7 kilometr yüksək və aşağıgərginlikli elektrik verilişi xətti çəkilib. Bir aşağıgüclü transformator yarımstansiyası daha güclü transformator yarımstansiyası ilə əvəz ediləcək, 9 müxtəlifgüclü transformator yarımstansiyasında təmir işləri aparılacaq. 400 kva gücündə transformator yarımstansiyasının quraşdırılmasına hazırlıq işləri görülür.

Rayonun rabitəçiləri tərəfindən də qışa hazırlıq tədbirlərinin böyük bir qismi başa çatdırılıb. Kabel quntuları, paylayıcı şkaflar, abonent qutuları və kabel muftaları texniki normalara uyğun vəziyyətə gətirilib. Rayon mərkəzindən kənd yaşayış məntəqələrinə gedən xətlərə baxış keçirilib, istismar müddəti başa çatan, zədələnən xətlər yenilənib. Hazırlıq tədbirləri çərçivəsində, ümumilikdə, 20 min 180 metr müxtəlif kabeldən, 240 dəmir dirəkdən, 90 ədəd müxtəlif abonent qutusundan istifadə olunub. İki paylayıcı şkaf quraşdırılıb. Hazırda istismar müddəti başa çatmış akkumulyatorlar, generatorların yağ, yanacaq və hava filtrləri dəyişdirilir, digər zəruri işlər görülür.

Rayon Mənzil İstismar Sahəsi tərəfindən bir sıra ictimai yaşayış və inzibati binalarda cari təmir işləri aparılıb, Culfa şəhərinin Məmməd Əsgərov, Cəfər Cabbarlı, Mehdi Hüseynzadə küçələrindəki ictimai yaşayış binalarında sıradan çıxmış şiferlər dəyişdirilib. Heydər Əliyev prospektindəki 26 nömrəli ictimai yaşayış binasında kanalizasiya xəttindəki nasazlıqlar aradan qaldırılıb, Məmməd Əsgərov küçəsindəki 27 nömrəli binanın zirzəmi qapıları dəyişdirilib.

Bununla yanaşı, o da qeyd olunmalıdır ki, payız-qış mövsümünə hazırlıqla bağlı görüləsi işlər çoxdur. Qeyd edək ki, Culfa şəhərində 71 ictimai yaşayış, 40-dan çox inzibati bina var. Yeni inzibati və yaşayış binalarının hamısında qışa hazırlıq yüksək səviyyədə təmin olunsa da, yerdə qalan binaların bir neçəsində vəziyyət qənaətbəxş deyil. Məlumat üçün onu da bildirək ki, şəhərdəki iki və üçmərtəbəli binaların heç birinin qazanxana sistemi yoxdur. Həmin binalarda əhali müxtəlif qızdırıcı vasitələrdən istifadə edir. Qaldı ki, qazanxana vasitəsilə qızdırılan binaların bəzilərinə, işə məsuliyyətsizliyin nəticəsidir ki, həmin binalar insanın yadına "gözdənuzaq, könüldəniraq" məsəlini salır. Binaların giriş qapıları, bəlkə də, həmin binalar tikiləndə salınıb. Sonrakı vaxtlarda isə cari təmir işlərinin belə aparılmamasını ilk baxışdan hiss etmək olar. Bəzi binalarda isə qapı, necə deyərlər, yerli-dibli yoxdur. Pəncərələrdən sellofan kəsiklərinin yellənməsi isə bu qənaəti yaradır ki, həmin pəncərələr şüşə üzünə çoxdan həsrətdir. Bu mənzərələri bir həftə əvvəl görmüşdük. Oktyabr ayının 8-də yenidən həmin ünvanlara üz tutduq və xeyli iş görüldüyünün şahidi olduq. Bununla belə, şəhərin "Təbriz" küçəsindəki 9, Mehdi Hüseyn küçəsindəki 30, Məmməd Əsgərov küçəsindəki 15 nömrəli ictimai yaşayış binaları hələ qışa hazır vəziyyətdə deyil. Bu isə aidiyyəti təşkilatları ciddi düşündürməli, onlar qışa hazırlıq tədbirlərini sürətləndirməlidirlər. Burada vətəndaşların özlərinin də yaşadıqları binaya ögey münasibət göstərdikləri şübhəsizdir. İlk olaraq, onlar özlərinin yaşadıqları binanın qeydinə qalmalıdırlar. Pəncərə və qapıların bu vəziyyətə düşməsinin səbəbini onlar özlərində axtarmalıdırlar. Qaldı ki, aidiyyəti qurumların adıçəkilən binaların qışa hazırlığını sürətləndirmələrinə, yaqin ki, qəzetimizin çıxışından sonra bu məsələ öz həllini tapacaqdır.

✍ Muxtar MƏMMƏDOV

---

*Naxçıvan şəhərindəki Məhəmməd Tağı Sidqi adına 4 nömrəli tam orta məktəbdə görkəmli pedaqoq, maarifçi, şair Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illiyinə həsr edilmiş tədbir keçirilib.*

## Məhəmməd Tağı Sidqinin adını daşıyan məktəbdə böyük pedaqoqa həsr edilmiş tədbir



Tədbiri giriş sözü ilə məktəbin müəllimi Lalə Kərimova açaraq M.T.Sidqinin həyat və ədəbi-pedaqoji fəaliyyəti haqqında danışıb.

Sonra məktəbin müəllimi Səadət Əsgərova çıxış edərək bildirib ki, maarifçi şair və yazıçı olmaqla yanaşı, M.T.Sidqi həm də tanınmış alim-pedaqoq, əxlaq nəzəriyyəçisi və görkəmli məktəbşünas idi. Bununla belə, onun elmi fəaliyyətində ədəbi-fəlsəfi məsələlərin də öz əksini tapdığını vurğulayan Səadət Əsgərova qeyd edib ki, Sidqinin "Heykəli-insana bir nəzər" əsəri nəsrlə yazılmış ədəbi-fəlsəfi traktatdır. Burada müəllifin həyat və cəmiyyət, ictimai-mədəni tərəqqi haqqındakı fikir və düşüncələri əks etdirilib. Sidqinin insanın formalaşması və bəşər cəmiyyətinin keçdiyi inkişaf mərhələləri barədəki elmi mülahizələri öz dövrü üçün yeni və cəlbedici idi. XIX əsrin axırlarından etibarən cəmiyyət həyatında müşahidə olunan canlanma, dirçəliş, məktəbdarlıqla əlaqədar yiyələndiyi maarifçi ideyalar onun yaradıcılığına ictimai məzmun gətirib.

Bildirilib ki, böyük müəllim, görkəmli pedaqoq kimi şöhrət qazanmış M.T.Sidqi həm də tanınmış uşaq ədəbiyyatı yazarıdır. Onun qələmindən çıxmış uşaq ədəbiyyatı nümunələrində mütərəqqi ideyalar öz əksini tapıb. Məktəbə və elmə rəğbət, müəllimə hörmət, yeni nəslin tərbiyəsi, insanı və cəmiyyəti dərk etməyə çağırış maarifçi yazıçının əsərlərinin əsas məramlarından olub. Müəllim-yazıçının uşaqlar üçün müxtəlif janrlarda yazılmış bədii əsərləri onun maarifçi-pedaqoji ideyalarını təbliğ edən söz sənəti nümunələridir.

Sonda məktəbin şagirdlərinin ifasında Məhəmməd Tağı Sidqinin şeirləri bədii qiraət olunub.

✍ Sona MİRZƏYEVA

---

## Naxçıvan boksçuları Avropa çempionatına yollanırlar

Yaxın günlərdə Azərbaycanın gənclər və yeniyetmələrdən ibarət boks komandası Avropa çempionatına yollanacaq. Sevindirici haldır ki, qitə birinciliyinə yollanacaq dəri əlcək sahiblərindən ibarət millimizin heyətində iki Naxçıvan boksçusu da yer alacaq. Belə ki, Bakıda təlim-məşq toplanışında olan Tayfur Əliyev və Sərxan Əliyev Avropa çempionatına yollanmaq üçün sparinq döyüşləri keçiriblər. 56 kiloqram çəki dərəcəsində Tayfur Əliyev bütün rəqiblərinə qalib gələrək Azərbaycanı Avropa çempionatında təmsil etmək hüququ qazanıb. O, 17-23 oktyabr tarixlərində Xorvatiyanın Zaqreb şəhərində keçiriləcək gənclər arasında Avropa çempionatında mübarizə aparacaq.

Eləcə də 50 kiloqram çəki dərəcəsində mübarizə aparan Sərxan Əliyev qardaşının uğurunu təkrarlayıb və qitə birinciliyinə vəsiqə qazanıb. Sərxan 27 oktyabr-3 noyabr tarixlərində Rusiyanın Anapa şəhərində təşkil olunacaq yeniyetmələrin qitə birinciliyində rinqə çıxacaq.

İki boksçumuzla yanaşı, daha bir dəri əlcək sahibimiz də millimizin düşərgəsindədir. 80 kiloqram çəki dərəcəsində mübarizə aparan Nihad Orucov Azərbaycan yığmasının heyətində Türkiyəyə yollanıb.

---

## Rayon birinciliyi başa çatıb

Şahbuz Şəhər Stadionunda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Şahbuz Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə 18 Oktyabr – Müstəqillik Gününə həsr olunmuş məktəblilər arasında yüngül atletika üzrə rayon birinciliyi keçirilib. Qızlar və oğlanların mübarizə apardığı birincilikdə məktəblilər 100, 200, 400, 800 və 1500 metr məsafədə kimin güclü olduğunu nümayiş etdiriblər.

Oğlanların mübarizəsində 100 metr məsafəyə qaçışda Məmməd Şahgəldiyev, 200 metrdə Tacirəddin Məmmədov, 400 metrdə Ümid Cəfərov, 800 metrdə Elmar Novruzlu və 1500 metrdə Elnur Musayev finiş xəttinə hamıdan tez çatıblar.

Qızların yarışında isə müvafiq olaraq Selcan Məmmədova, Zəhra Quliyeva, Leyla Cəfərova və Nigar Misirli bütün rəqiblərini qabaqlayaraq birinciliyin qalibi adını qazanıblar.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

✍ Ceyhun MƏMMƏDOV

---

***İtmişdir***

Kəngərli rayonunun Yeni Kərki kənd sakini Əhmədov Elman İsmayıl oğlunun adına olan JN-28A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

---


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 868